

**Yədulla AĞAZADƏ, professor**

## Rəyçidən: Son söz yerinə

# "İŞIQ YARADAN SIZAR"

Bu başlığı təsadüfi seçmirəm, *"Yazıçının vətən dağı"* kitabının ikinci cildində verilən esselərdən birinin adıdır. Bu başlığın klassikadan gəldiyini müəllif özünəxas bir tərzdə şərh edir və uğurla "Solmayan Nərgiz"ə bağlayır: "*Müəllif "Solmayan Nərgiz" romanını vətənin dərd zirvəsindən başlayır. Problemin ən göynəm məqamını yada salmaqla oxucusunun ruhunu səfərbər edir, heç də onu bestseller, əyləndirici bir romanın gözləmədiyini xəbərləyir. Əsərin Mövlanə Cəlaləddin Rumidən gələn və bizim yarımbaşlıq üçün seçdiyimiz "İşıq yaradan sızar" epiqrafı ilə başlaması da təsadüfi deyil. Mövlanə Cəlaləddin Ruminin "İşıq yaradan sızar" deyimində hansı mənalar tirajlanır.*

*Əvvəla, insan təbiətən belə bir məxluqdur ki, öz gözləri ilə gördüyü hadisənin mahiyyətinə daha çox varır, nəinki özündən əvvəlki həyatı yaşamış olanların təcrübəsindən faydalanmaqdan... Həqiqətən, göynəyən yara insanın düşüncəsini səfərbər edir. Onun nə üçün göynəyən yara daşıdığına diqqəti yönəldir. Və şübhəsiz, göynəmlərin arxasınca insan düşünür və bu göynəmdən yaxasını qurtarmaq üçün çıxış yolu da axtarmalı olur. Həmin çıxış yolunu görkəmli filosof məhz işıq adlandırır*". Bundan sonra müəllifin maraqlı müşahidələri gəlir. O, qeyd edir ki, insan düşdüyü çıxılmazlıqdan xilas yolunu nə qədər düşünmürsə, bir o qədər qaranlıqda qalır. Zənnimcə, uğurlu mülahizədir. Mən də oxucuya daha aydın çatsın deyə, bir qədər improvizə il yazıya gətirdim.

* * *

Vətəndən kənarda vətən üçün yazıb-yaradan sənətkarlar çoxdur. Taleyin hansısa dalğasının atdığı bir diyarda vətən üçün yazıb-yaratmaq o qədər də asan deyil. Gərək ruhunda, varlığında mənsub olduğun xalqın dəyərləri sarsılmaz güc olaraq yaşasın ki, cismən qopduğun yerlərdən mənən ayrılmayasan. Açığı, mən belə düşünürəm ki, elə vətən üçün yazıb-yaratmaq, mənsub olduğun xalqın dəyərlərini hifz etmək naminə sözü ən güclü vasitə olaraq seçmək elə həm də bəşəri dəyərlər uğrunda mübarizə aparmaq deməkdir.

Ulduz Qasım 40 ilə yaxındır ki, vətəndən çox uzaqlarda, Moskvada yaşayır. Bu da bir xüsusi cəfakeşlik tələb edir ki, mənsub olduğu xalqın həqiqətlərini yad diyarda, özü də bir çox hallarda əks fikirlilərin əhatəsində yazasan və bu yad düşüncələrə bütün varlığınla diktə edəsən ki, yazılan həqiqətlər inkarolumazdır.

Əlbəttə, Ulduz Qasımı bir yazıçı kimi indi uzağı yaxın edə bilən sosial şəbəkədən də kifayət qədər tanıyıram. Ara-sıra Azərbaycana gəlməyindən də xəbər tuturam. Əsərlərinin Bakıda, Azərbaycanın müxtəlif rayonlarında təqdimatlarını da informasiya axınından bilirəm. Ancaq ən çox dostum ədəbiyyatşünas tənqidçi, görkəmli şair-publisist Əli Rza Xələflinin Ulduz Qasımın haqqında yazdıqlarından tanıyıram. Onun *"Yazıçının vətən dağı"* adlı iki cildliyini diqqətə çəkmək bəs edər ki, istedadlı nasir, publisist Ulduz Qasımın kimliyi haqqında kifayət qədər təsəvvürümüz olsun. O, Ulduz Qasımın nəsr yaradıcılığı ədəbi-tənqidi düşüncələr müstəvisində məzmununu əhatə edən çox dəyərli bir tədqiqat əsəri yaradıb. Artıq qeyd etdiyim kimi əsər iki cilddən ibarətdir. Birinci cild artıq nəşr olunub və bu barədə mən həmin kitaba yazdığım rəydə kifayət qədər dolğun məlumat vermişəm. *"Yazıçının vətən dağı"* (Ulduz Qasımın nəsr yaradıcılığı ədəbi-tənqidi düşüncələr müstəvisində) iki cildliyinin ikinci cildində yazıçının bir çox dəyərli əsərləri təhlilə çəkilir.

Hər bir diqqətli oxucuya artıq məlumdur ki, çox istedadlı nasir Ulduz Qasım ulu Qarabağımızın uğrunda aparılan savaş tarixinin bədii salnaməsini özünəxas bir ustalıqla qələmə alıb. Artıq başqaları da bu fikirlə razılaşır ki, Ulduz Qasım Qarabağnamələrin yeni zaman üçün ən dəyərli salnaməsini yaradıb. Müəllif bu cilddə Ulduz Qasımın *"Solmayan Nərgiz"* romanından başlayır.

Müəllif "Giriş əvəzi düşüncələr" adlı qeydlərində sənətkarın mənəvi mühitini psixoloji dəqiqliklə verir: "*Bütün ruhu, varlığı, düşüncələri ilə yurda bağlı olan söz adamı dünyanın harasında olur-olsun, mənəvi həyatı ilə ömrünü elə yurdunda, vətənində yaşayır. Yuxularında uşaqlıq çağlarını, çoxdan ayrılmış doğmalarını, uşaqlıq yoldaşlarını, bir sözlə, vaxt baxımından çox uzaqlarda qalmış həyatını uzun seriallar kimi təkrarlayır, təzədən yaşayır. Görünür, elə insanın yaddaşını qoruyan amillərdən biri də yuxu fenomenidir. Amma ikinci bir fenomen də var.*

*İnsanın həyat amalı, ümumiyyətlə, insanı ucalığa səsləyən missiya da söz adamını məcbur edir ki, düşüncələrində əks-səda verən duyğuları sözə gətirərkən daha çox yaddaşına güvənsin. Yaddaş isə bizə, xüsusilə ömrünün təfsir zamanını yaşayan, yəni yaşamının yuxarı mərtəbələrinə çatan insanlar üçün 40 yaşa qədər gördüklərini daha çox qoruyub saxlayır. Beləliklə, yazıçı Ulduz Qasımın yaradıcılığının əsasını təşkil edən mühitin - Qarabağın əsas obraza çevrilməsinin səbəbi də aydın olur*". Zənnimcə, bu qeydlərdən aydın görünür ki, *"Yazıçının vətən dağı"* kitabını yazarkən müəllif yaddaş fenomenini daha üstün tutur və Ulduz Qasımın da yaradıcılığında onun bu fenomenə güvəncinə əsaslandığını təsdiq edir. *"Solmayan Nərgiz"* Qarabağın acı taleyindən bəhs edir. Nərgizin simasında sanki zərif Qarabağ çiçəyini görürük. O, bütün sərtliklərə, qabalıqlara baxmayaraq, öz təravətini itirmir. İçərisindən odlanan, alovlanan bir istəklə tavanın açılacağına, yurdun təbiətinə bahar gələcəyinə inanır. Əsərin sonunda biz Nərgizin bütün inamlarının bəşəri dəyərə güvəndiyinin şahidi oluruq.

Güvənc Nərgizin ən güclü silahıdır. O, insanlığın qalib gələcəyinə inanır və əsər də məhz bu həqiqəti təsdiq edir.

Kitabda ikinci bölmə *"Xocalı şikəstəsi"nin yaralı səsi"* adlanır. Bu bölmədə Xocalı faciəsinin miqyası haqqında da əhatəli məlumat verilir. Zənnimcə, müəllif tədqiqat materialını oxuyacaq şəxslərin maraq imkanlarını nəzərə alıb. Onu da deyim ki, Ulduz Qasımın *"Xocalı şikəstəsi"* romanı sürətlə yayıldı. Bu əsər bir çox dillərə tərcümə olunub. Bölmədə maraqlı başlıqlar var: *"Qar üstündə yazılanlar"*, *"Qanlı izlər, yaralı sözlər"*, *"İnsanın əzabı daşımaq gücü"*, *"Olum-ölüm arasında"*, *"Döyüşə sevginin izi ilə"*, *"Dözümlərin savaşı"*,




*"Çaylar sakit axmır"*... kimi başlıqlar yaratdığı emosional təsirlə əsərin bədii gücünü qavramağa kömək edir. Müəllifin emosional düşüncəyə münasibəti də xüsusi cazibə yaradır: ***"...Əvvəlcə "Dağ çayları sakit axmır" yazmaq istədim. Sonra düşüncəmi kompüterin yaddaşına köçürən əməkdaşla - Elvin Kamalla kiçik müzakirə apardıq. Elvin özünəxas, sakit tərzdə, bir az da təbəssüm qarışıq görünüşlə "bütün çaylar dağlardan başlayır", - dedi. Deməli, düzlərdə qismən sakitləşən çayların hamısında coşqu var. Xüsusilə yazda, payızda dağlarda əriyən qarın, şiddətli yağışların təsiri ilə daşan çayların gücü, qüdrəti daha çox elə düzlərdə görünür. Axır ki, Elvinlə razılaşmalı oldum, bəli, çaylar sakit axmır".*** Əsər XXI əsrin miqyassız faciəsinin mənzərəsini kifayət qədər aydınlığı ilə yaradır. Biz bir daha aydın başa düşürük ki, bu hadisənin baş verdiyi tarixdən nə qədər uzaqlaşsaq da, bu yaranın göynəmini unuda bilməyəcəyik. Zənnimcə, elə bədii əsərin dəyəri də bundadır. İnsanlara tarixi həqiqətlər unudulmazlıq gücü ilə təlqin olunmalıdı. Əlbəttə, bir daha insanlığı belə bir facia ilə üz-üzə gətirməmək üçün.

Növbəti bölüm *"Qarabağda qiyamət"in sonu"* adı ilə təqdim olunur. Bu bölmədə müəllif yazıçının Qarabağın azad edilməsi ilə başlanan döyüşün xronikasını verən əsərindən danışır. Biz təkrarsız döyüş mənzərələrini sanki öz gözlərimizlə görürük. Şuşanı azad edən əfsanəvi qəhrəmanlarla tanış olur və onlardan əbədi olaraq ayrıla bilmirik.

*"Yazıçının vətən dağı"* kitabının II cildində *"Ağ göyərçinlər"* və *"Qaçaq Aslan"* romanlarından da bəhs olunur. Xüsusilə bu əsərlərdə yurd nisgilinin gənc nəslin yaddaşında yaratdığı psixoloji zədələrin sağalmayacaq izlərini müşahidə etmək çox ağrılıdır. *"Ağ göyərçinlər"* romanında şuşalı uşağın yurda qovuşmaq istəyi sanki bir göyərçinin öz yuvasına uçmaq istəyini əks etdirir. Bu təbii istəkdir. Və yazıçı bu psixoloji məqamı çox ağrı ilə qələmə alıb. Bunu Xələflinin *"Yazıçının vətən dağı"* kitabında qələmə aldığı düşüncələrdən də hiss etmək olar.

*"Qaçaq Aslan"* romanı yazıçının yaradıcılığında yeni səhifədir. Burada biz bütöv Azərbaycan həsrətini yaşayan insanların sonsuz iztirablarını görürük. Tarixi birlik rəmzi olan Xudafərin üstündəki düşüncələr unudulmazdır.

Nəsillər dəyişib. Xudafərin üstünə gələn milli hökümət uğrunda inadla mübarizə aparan Aslanın oğludur. Müəllif bu mənəvi əlaqəni çox yığcam, amma sərrastlıqla ifadə edir: *"Yeniyetməlik çağınacan doğma yurdunun havası ilə böyümüş Beytulla sanki atasından aldığı həsrət yanğısı ilə o taya baxır. Təkcə elə onun düşüncələri yeni nəsillərə birlik dərsliyi ola biləcək gücdədir"*. Ə.R.Xələfli *"Yazıçının vətən dağı"* kitabını axıra qədər, xüsusi yanğı ilə qələmə alıb. Hətta bir çox hallarda biz tədqiqat əsərinin əhatəsindən çıxıb bədii əsərin fikir axarına qovuşuruq.

*"Yazıçının vətən dağı"* kitabının son cümlələrini də mənəvi yaddaş elementi kimi xatırlatmaq istərdim: *"Vətən üçün yanan Ulduz"... Bu qeydlərə təsadüfi başlıq deyil. Artıq dəfələrlə qeyd etdiyim kimi, Ulduz "Qaçaq Aslan" romanını ürək qanı ilə yazıb. Necə ki, Qarabağ salnamələrini - iztirabları ilə, qəlb göynəmləri ilə yaradıb"*. Zənnimcə, bu sözləri elə *"Yazıçının vətən dağı"* kitabı və onun müəllifi haqqında da demək olar.

Xələfli rəmzlərə xüsusi diqqət yetirən müəllifdir. Onun Aslan adına verdiyi qısa xarakteristika da bunu təsdiq edir: *"Aslan Borçinin taleyi ən ağır həsrətlərdən keçərək bu gün yaddaşlarda təzədən oyanışa gəlir. Zənnimcə, daha bir cümlə də yerinə düşərdi. "Borçi" adı Aslanın doğulduğu kəndin ünvanından improvizə olunub. Börünü yada salır. Qurdun ulasın, vətən üçün yanan Ulduz"*. Hər bir yazı müəllifin diləklərinin, istəklərinin ifadəsidir. Kitabdakı qeydlərdən aydın olur ki, Əli Rza Xələfli yazıçını sözün həqiqi mənasında bir vətən aşiqi kimi tərənnüm edir. Onun bütün varlığı ilə bir vətən obrazını yaratdığını təsdiqləyir və bunu tərənnüm edir.

Sonluqda isə sanki bircə cümlənin təsiri ilə yaddaşımızda qurd ulartısının səsi əks-səda verir.

Və elə buradaca mən də deyirəm: Qurdun ulasın, Əli Rza Xələfli.

**24.01.2023**